# Səyyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.



Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin yanvar ayında səyyar qəbul Zarağan kəndində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**“Qəbələ səsi”.**
**Fotolar S. Umuyevindir.**



Zarağan kəndi.

**QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2026-cı İLİN FEVRAL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ**

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer |
|---|---|---|
| Həmzəli kəndi | 04.02.2026 | Kənd məktəbi |
| Tüntül kəndi | 11.02.2026 | Kənd İƏD inzibati binası |
| Kiçik Pirəli kəndi | 18.02.2026 | Kənd məktəb |
| Çuxur Qəbələ kəndi | 25.02.2026 | Kənd məktəb |

# Vətəndaş qəbulları





Yanvar ayının 16-sı və 23-ü tarixlərində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulları keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## Şəhərsalma və Memarlıq İli

# Sabaha inamla

2026-cı il yanvar ayının son günlərini yaşayırıq. İlin ilk ayında yeni planlara başlamaq, həyatımızda mühüm dəyişikliklər etmək üçün ilin başlanğıcı əla fürsətdir. İnsan hər il qarşısına müəyyən məqsədlər qoymalıdır ki, ilin bütün günlərini səmərəli şəkildə dəyərləndirsin. Hər il insan ən azı yeni bir yeri gəzməli, yeni biliklər öyrənməli, yeni dostlar qazanmalıdır. Yeni yerləri gəzib öyrənmək üçün keçmişdən, tarixi önəm daşıyan yerlərdən başlamaq lazımdır. Ələlxüsus bizim gənclərimiz tarixi abidələrimiz ilə tanış olmalı, milli mənəvi dəyərlərimizi öyrənməli hər zaman onları qorumağa səy göstərməlidirlər. Elə təsadüfi deyil ki,2026-cı il cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Şəhərsalma və Memarlıq ili" elan edilib. Prezidentimizin ölkəmizin tarixi keçmişinə, abidələrinə mədəniyyətinə olan diqqəti hər zaman ön planda olub. “İşğaldan azad olunmuş mədəniyyət paytaxtımız Şuşa şəhəri qısa zamanda aparılan tikinti və yenidənqurma işlərindən sonra öz tarixi simasını yenidən bərpa etmişdir. Artıq azad torpaqlarımızın bir çox ərazilərində öz əbədi sakinləri yaşayır. “Bu torpaqlarda böyüyən uşaqlar artıq müharibənin deyil, quruculuğun səsini eşidəcəklər. Onlar tariximizi yalnız kitablardan deyil, bərpa olunmuş abidələrdən, dirçələn şəhərlərdən öyrənəcəklər”.

2026 cı il Şəhərsalma və yenidənqurma ili olsa da ölkəmiz ta qədim zamanlardan öz tarixi abidələri olan Qız qalası, Şəki xan sarayı, İçəri Şəhər qala divarları, Cümə məscidi və digər tarixi incəsənət nümunələri ilə bütün dünyada məşhurdur. Hətta qeyd etməkdən fəxr hissi duyduğum doğma Qəbələm əsrlər boyu Qafqaz Albaniyasının paytaxtı kimi planlı şəhərsalmanın əsas mərkəzlərindən biri olmuşdur.

“Şəhərsalma və Memarlıq İli” ölkəmizin tarixi irsinə verilən yüksək dəyərin bariz göstəricisidir. Bu gün qorunan və yenidən qurulan şəhərlər sabah bu torpaqlarda böyüyən uşaqların vətən sevgisinin və milli kimliyinin formalaşmasında mühüm rol oynayacaqdır.”

**Nigar BABAYEVA,**
**Qəmərvan kəndi.**

# Müzəffər xalq, güclü dövlət, yenilməz ordu

***- Heydər Əliyev 1971-ci ildə böyük zəhmətlər bahasına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu.***

Azərbaycanın qəhrəman, şücaətli, mərd oğullarının bır şüarı var: "Vətənin sərhədləri nə qədər böyük olsa da bizim vətən məhəbbətindən böyük ola bilməz”. Əlbəttə igid, qorxmaz, qəlbində daim vətən sevgisi coşub-çağlayan mərd ərənlərimiz daim bu sevgidən güc alıb düşmən üzərində qələbələr çalıb. Azərbaycanın ümummilli lideri Heydər Əliyev xalqın gücünə, vətən övladlarının qəhrəmanlığına, əzminə, şücaətinə yaxşı bələd olduğu üçün hər iki hakimiyyəti illərində vətənin sərhədlərinin qorunması, gənclərin hərbi bacarıqlarının artırılması sahəsində mühüm dövlət siyasəti ortaya qoymuşdur. Bunun bariz nümunəsi olaraq Azərbaycanda sovet hakimiyyəti illərində yaradılan ilk hərbi məktəbi - Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyi göstərmək yetərlidir. Heydər Əliyev 1971-ci ildə böyük zəhmətlər bahasına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Həmin illərdə rus imperiyasının tərkibində olmaqla bu istiqamətdə fəaliyyət böyük hünər tələb edirdi. Heydər Əliyev belə çətin bır dövrdə bu işi uğurla, şərəflə yerinə yetirdi. Bu məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxarmışdı. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra Naxçıvanski adına Hərbi Məktəb ordu quruculuğunun əsas bazalarından birinə çevrildi. Ulu öndər Heydər Əliyevin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması mümkün oldu. Ümumiyyətlə, Azərbaycan Milli Ordusunun adı, inkişaf tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Sovet imperiyası dağıldıqdan sonra müstəqillik əldə edən Azərbaycan torpaqları işğalçı Ermənistan tərəfindən talançılığa, vandalizmə məruz qaldı Müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bır vaxtda ordu quruculuğu kimi vacib və məsuliyyətli işin öhdəsindən gələ bilmədilər. Həmin dövrdə nizami ordudan əsər-ələmət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Azərbaycan müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır vaxtda xalqın çağırışı ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi 1994-cü il mayın. 12-də Ermənistan - Azərbaycan hərbi münaqişəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması daha da sürətləndi. Həyata keçirilən uğurlu siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət ayrıldı. Həmin illər ərzində ordu quruculuğu sahəsində də ciddi işlər görüldü. 26 iyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü məhz Ulu öndər Heydər Əliyevin adı ilə tariximizə yazıldı Ulu öndərin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

2020-ci ilin tarixi qələbəsi də məhz 1990-cı illərin əvvəlində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ordunun qələbəsi idi. Bu gün də Azərbaycan Ordusunun yüksək hazırlıqlı zabit, gizir-miçman, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və mülki heyətlə keyfiyyətli komplektləşdirilməsi istiqamətində vacib işlər aparılır. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ehtiyat zabit hazırlığı, gizir hazırlığı və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlanması üçün mütəmadi olaraq toplanışlar təşkil olunur və keçirilir. Müasir müharibələrin tələblərinə uyğun kadrların hazırlanmasının təkmilləşdirilməsi məqsədilə sürətlə dəyişən əməliyyat mühitində çevik qərar qəbul edən və yüksək adaptasiya qabiliyyəti olan kadrların hazırlanması istiqamətində xarici ölkələrin qabaqcıl təcrübələri öyrənilir, mənimsənilir və ölkəmizin hərbi maraqlarına uyğunlaşdırılaraq Azərbaycan Ordusunda tətbiq olunur. Möhtərəm Prezidentimiz İlham Əliyev bu istiqamətdə dövlət siyasətini əsas tutur və “Biz bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq, güclü dövlət, yenilməz ordu və güclü iradə sahibi kimi” ifadələri ilə bir daha xalqa güc, inam bəxş edir.

**İlhamə SEYİDOVA,**
**“Qəbələ səsi”nin ştatdankənar müxbiri.**